

*Əli Rza XƏLƏFLİ*
*(Əzizli Əlirza Zal oğlu),*
*"Kredo" qəzetinin baş redaktoru,*
*Beynəlxalq Rəsul Rza mükafatı laureatı*

# Qələbənin ömrümdən keçən bir ili...

Doğrusu, əvvəlcə "qələbəmin ömründən keçən bir ili" yazmaq istədim. Sonra mənəvi sıxıntı altında qələbəmin yox, bütövlükdə qələbənin ömrümdən keçən ilindən danışmaq istədim.

Özümü millətin, xalqın, vətənin zərrəsi bilirəmsə, elə qələbəni də özümünkü bilməyim heç də qəbahət deyil.

Amma hər halda bütün vətən müharibəsi boyu döyüşən ordunun mənəvi güc aldığı xalqın qələbəsi təkcə mənim deyil və eyni zamanda həm də mənim qələbəmdir.

Məntiqi təzada görə kimsə məni qınaya bilər, amma mən Qarabağ uğrunda – vətən müharibəsi uğrunda savaşda cəbhənin hər yerində varlığımla bölünərək savaşırdım.

Bacım oğlu Kənan Fərhadlı qırıcı təyyarə ilə düşmən mövqelərinə neçə dəfə uçuş etdi. Onun hər uçuşunun sonu xüsusi bir qəhrəmanlıq örnəyi idi.

Qardaşım oğlu Turan savaşın ən odlu nöqtələrində igidlik, oğuzluq gücü göstərdi. Qardaşım oğlu Atilla Şuşanın azad olunan günü artıq Şuşada idi. Və bu gün də elə xidmətini Daşaltıda, mənfurlarla üzbəüz səngərdə davam etdirir.

Mənim Ceyhunum hələ müharibə qurtarmamış səfərbərliyə alındı və bu gün Kəlbəcərdə düşmənlə üzbəüz mövqelərdə xidmət keçməkdədir.

*(Davamı 3-cü səhifədə)*

# Qələbənin ömrümdən keçən bir ili...

*(Əvvəli 1-ci səhifədə)*

Qətiyyən yazmaq istəməzdim. Elə bil ki, faktları sadaladıqca özümə doğru münasibətin səmimiyyət çalarından çıxacağını düşünürəm. Oğlum Araz müharibənin ən qızğın zamanında iki dəfə minamyot atəşərinin, top mərmilərinin altından, açıq ölümdən xilas oldu. Bir dəfə Tərtərdə, bir dəfə də Cəbrayılın girişində - el yolunun ağzında. Hər dəfə can atsam da, övladlarım mənim cəbhə bölgəsinə tərəf yolumu bağladılar. Onların hər hansı birinin son həyat anını görmək mənim üçün çox ağır olardı, ona görə də özüm o yola can atırdım.

Zaman mənim üçün böyük görk güzgüsü idi. Vətəndən danışanlar, yurddan danışanlar çox asanlıqla övladlarını hərbi xidmətdən yayındırmaq yolu tapdılar. Bir az da dəqiq desək, heç kim (bu "heç kim" ifadəsi kimlərə aiddir, özləri bilir) öz övladını ölümün ağzında görmək istəmirdi. Eləcə də, mən də görmək istəmirdim. Və başqa cür desəm, yəqin ki, səmimiyyətdən kənar olar, həqiqi doğruluqdan uzaq olar.

Mənim türk mənəvi mühiti ilə bağlı millətimi ulu keçmişinə qaytarmaq istəyimlə bağlı adlar verdiyim, nəvələrim Amur və Aral Əzizli qardaşları müharibənin ən odlu səhnələrini öz həyatlarında yaşadılar.

İndiyə qədər dilimə gətirmirdim, həmin 44 günü 44 il kimi yaşadıq. Bütün gecə zəngləri, bütün vaxtsız səhər zəngləri bizi dəfələrlə həlak edib, təzədən həyata qaytarıb. Amma bütün dirilişlərin mahiyyətində itkilər var, ağrılar var. Hər bir diriliş özündən əvvəlki həyəcanlarla ürək tellərindən nələrisə qoparıb aparır.

Amur və Aral Əzizli qardaşları müharibədən salamat çıxdılar. Və əlbəttə, təəssüf ki, bu günə qədər də müharibənin ağır, psixoloji travmalarının müalicəsindədirlər.

Vətən, vallah, mən səndən heç nə ummuram. Amma vətənə heç nə verməyib vətənin dar günündə gizlənib, gen günündə üzə çıxanların öyüd-nəsihətlərini dinləmək əzabını yaşamaq mənim üçün çox çətindir.

***22.09.2021***

Kredo.- 2021.- 1 oktyabr.- S.1;3.